

*İftixar Piriyevi oxucularımıza təqdim etməyə o qədər də lüzum yoxdur. Çünki hər biriniz onun haqqında gedən rəngarəng yazıları da, İftixarın təqdimatında bir-birindən gözəl şerləri də oxumusunuz.*

*İftixar Piriyev bizə həm də səriştəli təşkilatçı, istedadlı aktyor kimi tanışdır.*

*İftixar yenə də görüşünüzə gəlib. Bu dəfə maraqlı pyesi ilə. Oxuyun, bu marağı siz də duyun.*

*İftixir*

# Dan yeri sökülləndə

## İki hissəli qəmli komediya

İŞTİRAKÇILAR

**CƏLİL ƏFƏNDİ** - kənd ağsaqqalı; 70-75 yaşlarında

**DUL ALI** - havalı kişi; 40-45 yaşlarında. Bütün fəsillərdə yalın bədənə gödəkqol, yamaqlı pencək və gödəkbalaq yamaqlı şalvar geyinir. Başına qadınsayağı çalma bağlayır.

**NANI KİŞİ** -havalı qadın; 35-40 yaşlarında. Bütün fəsillərdə başı üstündə qamışdan düzəldilmiş çətir gəzdirir.

**AŞIQ ƏHSƏN** - kənd aşığı, klubun müdiri; 50 yaşında.

**MOLLA QASIM** - kənd mollası, əhlikef adam; 45-50 yaşlarında

**MUNCUQLU MAHMUD** - Peterburqda hüquq və tibb elmləri üzrə ali təhsil almış, 1917-ci il inqilabının fəal üzvlərindən olmuş, orduda xidmət edərək general rütbəsi qazanmış, zadəgan nəslindən olduğuna görə 1937-ci ildə həbs olunmuş, həbsxanada psixi gərginlik keçirmiş, başına hava gəlmiş, həbsdən buraxıldıqdan sonra müalicə olunsa da sinirlərində əsəb pozğunluğu hələ də müşahidə olunur. Nimdaş da olsa, yay-qış hərbi şinel geyinən uca boylu, şux qamətli, təmkinlə danışan, sinəsinə orden-medal əvəzi ona bənzər əlinə keçən əşyalar taxan, havalı bir adam; 100-dən çox yaşı var.

**LYUDMİLA** - Muncuqlu Mahmudun arvadı, vaxtilə kənd məktəbində rus dilindən dərs demiş, hal-hazırda təqaüddə olan rus qadını; 90 yaşında.

**XIDIR** - Qızlarbəyi qarının nəvəsi, Günəşin əri; 35 yaşında.

**GÜNƏŞ** - Xıdırın arvadı; 25 yaşında.

**SÜLƏ SÜLÖYMƏN** - kənd sakini.

**OBOLO BƏŞİR** - kənd sakini, oğru; 40 yaşında.

**YETİM BAYRAM** - kənd sakini, fağır adam; 55-60 yaşlarında.

**DAMBAT DURSUN** - kənd sakini; 50 yaşında.

**NATAŞA** - Xıdırın Rusiyadan özü ilə gətirdiyi ikinci arvadı; 28 yaşında.

**DAŞA** - Xıdırın Nataşadan olan qızı; 1 yaşında.

**BADULADZE GİVİ** - kənd icra nümayəndəsi.

**BARBARYAN RAFİK** - sahə müvəkkili.

**SÜPÜRGƏÇİ, BAZAR ƏHLİ, KƏND CAMAATI VƏ SAİR...**

*Hadisələr 20-ci əsrin sonunda, Qafqaz ölkələrinin dağ kəndlərindən birində cərəyan edir.*

### BİRİNCİ HİSSƏ

*(Pərdə açılır. Hər yan qaranlıqdır. Gecə qaranlığının sükutunu uzaqdan eşidilən cırcırama səsi, it hürüşməsi və yanıqlı saz havası, daha sonra məlahətlə oxuyan qadın səsi pozur. Bu səs Nanı Kişinin səsidir.)*

**DUL ALI** - *(Qaranlığın içindən eşqlə söylənir.)* Oxu səsinə qurban, oxu. Oxu ömrüm-günüm, oxu. Oxu öyüm-eşiyim, oxu. Oxu a dağlar qızı, oxu... *(Xoruzlar tək-tək banlamağa başlayır. Yavaş-yavaş səhər açılır. Səhnədə mənzərəli bir kəndin mərkəzi canlandırılır. Mərkəzdə abidəsi dağıdılmış, yan-yörəsi uçulmuş bünövrə görünür. İcra nümayəndəliyi, poçt, klub, dükan, bazar və polis şöbəsinin giriş qapıları canlanır. Ara-sıra adamlar bazara doğru gəlir. Kimi girir, kimi çıxır. Süpürgəçi növbə ilə dağıdılmış abidənin dövrəsini, icra nümayəndəliyinin, poçtun, klubun, dükanın, bazar və polis şöbələrinin qarşısını süpürür.)*

*(Dul Alı Toppuzu at başına bənzəyən, çubuqdan düzəldilmiş atını səyirdə-səyirdə kəndin içi ilə dövrə vurur. Səhnənin tən ortasında dayanıb həmişəki kimi at əvəzi kişnəyir, sonra həmişəki kimi qışqıra-qışqıra*

*oxuyur.)* Çınqırı-qırı-qırı, çınqı-çınqırı, çırıqırı-qırı-qırı, çınqı-çınqrı, qırı-qırı-qırı-qırı-çınqı-çınqırı... Ay cahamat, ay cahamat, nə yatıbsınız, oyanın ay cahamat, Avtartet Abı qaladan çıxıb, Avtartet Abı qaladan çıxıb, bu gün kəndə gəlir, bu gün kəndə gəlir. Durun yuxudan ay cahamat... *(Atını yenidən səyirdir.)* Çınqırı-qırı-qırı, çınqı-çınqırı, çırıqırı-qırı-qırı, çınqı-çınqırı, qırı-qırı-qırı-qırı-çınqı-çınqırı...

**AŞIQ ƏHSƏN** - Ayə, a Dul evi yıxılmış, bir əylən görüm, nədi sənin danışdığın. Kim gəlir deyirsən kəndə, a sənin kəndə qara xavarın gəlsin.

**DUL ALI** - *(Çubuq atını saz əvəzi sinəsinə basıb aşıq sayağı görkəm alır, sazı kökləyirmiş kimi etüd edir və bir ağız oxuyur.)* Cıqrıqırı, cıqrıqırı, cıqrıqırı, ay cıqrıqırı. Deyir belə, a balam eeeeeey, sən mənim qara xavarımı eşitməyəcəksən. Ay balam, ay balam canıyın cirisi gəliiir. Aman-aman, ay aman-aman, ay bala-bala, ağrın alım. Ay belə, gözünə döndüyüm Abı qağam gəli-ii-hi-hir, ay bala-bala, ay sona ceyran, ay ölüm-ölüm, yanına gəlim, yanında qalım, ağrın alım. İndi dınqıldat çömçəni görüm, həncəri dınqıldadırsan? Heeeey... Aşıq sözünü saznan dediyi kimi, söznən də deyər. İndi dınqıldad sınıq çömçəni, görək həncəri dınqıldadırsan?

**AŞIQ ƏHSƏN** - Ayə, sən bu xavarı hardan eşitdin, a qara xavarın gəlsin? Kim dedi sana bunu belə savax-savax tezdənnən a vurğun vurmuş?

**DUL ALI** - Kim deyəsidi, Nanı Kişi.

**AŞIQ ƏHSƏN** - Nanı Kişi hardan bilir ömrü kəsik Aftartet Abının gəldiyini?

**DUL ALI** - Beyjə yuxusunda görüb Abı qağamın gəldiyini. Göyə çıxıbmış yenə. Ağ Mələknən podruqa döylümü Nanı Kişi. Ona qonax gedibmiş. Nanı Kişi isdiyib məni də aparsın, nə illah eliyib getməmişəm. Bilirsənmi, bə demiyiblərmi kin çağrılan yerə get, çağrılmıyan yerə burnunu soxma? Əmbə getsəydim, Abı qağamın gəldiyini mən də görərdim gözdərimnən. Göydən baxanda Abı qağam apaydın görünürmüş. Nanı Kişiyi görən təkin elə birinci məni soruşub. Bə! Yep-yekə bir eşşəyə minib gəlir qağam. Kənddən də yekə bir eşşəyə.

**AŞIQ ƏHSƏN** - A səni kənd yusun, ağlasın basdırsın, kəndə də eşşək deyərlərmi heç?

**DUL ALI** - Ə, sa ha demirəm, nə işin qalıb sənin?

**AŞIQ ƏHSƏN** - Səni görüm, qızıl gülləyə tuş gələsən, a Dul Alı. Ölüb qurtarmırsan ki, ayıblar örtülə.

**DUL ALI** - Elə bilirsən Ağ Mələk məni ölməyə qoyur, qoymur məni ölməyə Ağ Mələk. Nanı Kişiyə xəlvətcənə deyib kin, bir günnərisi ikinizi də özüm qanadımda uçurdacam göyün yeddinci qatına, heş kəndin də xavarı olmuyacax... Hər gecə Nanı Kişini çağırır öyünə qonaq, əmbə məni çağırmır... Bu gecə güdəcəm, Nanı Kişini çağıran təkin mən də hoppanıb minəcəm qanadına Ağ Mələyin...

**AŞIQ ƏHSƏN** - Hoppananda yavaş hoppan, birdən yıxılarsan...

**MOLLA QASIM** - Nə çır-çığırdı ə sabah-sabah? Yenə nə bannıyırsınız xoruz təkin? Toyuğunuzun yumurtası tərsmi gəlib? Allahdan-Tanrıdan qorxmursunuzmu? And olsun peyqəmbərin başına, sizə bir qarğış tökərəm, yernən yeksan olarsınız, niyə qoymursunuz xalx rahatca sabah yuxusunu yata?.. Buna bir bax, gecə sabaha təkin dağdan-dərədən əl çəkmir, sabah da tula çezməzdən at səyirdir hay-haraynan. İi-peşəsi ha yoxdu, atın dırnaqlarında didik-didik olmuşun.

**AŞIQ ƏHSƏN** - A Molla Qasım, o dünyada o qədər yatacaxsan ki, bu dünyada yatmasan da olar.

**MOLLA QASIM** - Küfür danışma, Aşıx. Allaha ağır gedər. O dünyada heç kəs yatmır. Hamı ayaq üstə Allahın qulluğunda durur. Kimi saznan, kimi söznən, kimi də iti göznən.

**AŞIQ ƏHSƏN** - Bə bu Dul Alı kimisi nağayrır orda?

**MOLLA QASIM** - Dul Alı kimisi də bərkdən-bərkdən Allahın ismarıclarını qışqırır allahsızdara.

**AŞIQ ƏHSƏN** - Bə allahsızdar nağayrır orda?

**MOLLA QASIM** - AllahsızLar da Aftartet Abı kimi qır qazanında yanır.

**DUL ALI** - Elə demə ay tifaqın dağılsın, Abı qağam qaladan buraxılıb, qayıdıb gəlir kəndə.

**MOLLA QASIM** - Ağzını xeyirliyə aç sabah-sabah, mərdimazar lənətulla. Bu ola bilməz, onu elə gedər-gəlməzə göndərməyiblər ha, o bir də geri gələ. Kim sana dedi onun geri gəldiyini?

**DUL ALI** - *(Xüsusi əda ilə.)* Nanı Kişi. Yuxusunda görüb qağamı.

**MOLLA QASIM** - Atıcı atar tayını tapar. Sən Nanı Kişidən başqa ayrı adamın sözünü danışma dünyasında. Öləndə də Nanı Kişi deyə-deyə öləcəksən, o dünyada da Nanı Kişi deyə-deyə qalacaqsan. Sən onnan danışma ey, sən Baduladzedən danış. Dünən yenə matrağı alıb əlinə sağa da cırpırmış, sola da.

**DUL ALI** - Baduladze dünən mənə təzəcə, yağın içində bir atbağışdadı. Budu ey, altımda. Həm atdı, həm də saz. Istiyəndə çapıram, istiyəndə çalıram. Bir şahə qalxmağı var kin bu atın, heç Qır at da belə olmazdı. Heç Koroğlunun üç telli sazı da belə səs çıxarda bilməzdi. Kişnərtisinnən dağ-daş lərzəyə gəlir. Qavrı çayının qıjıltısı qulax kəsilir bunun səsinə. Buna bax. *(At kimi kişnəyir, kişnərtini saz havasına cevirir və çaparaq uzaqlaşır.)* İ-ha-ha-ha-ha-ha-a- dara-dara-dara-dara-dara-dam.

**MOLLA QASIM** - Bu Baduladze əvvəl-axır bu kəndi burdan köçürdəcək. Deyir dünənnərisi beçərə Quləmin, o lal fağırın atını əlindən alıb aparırmış rayona. Nə var, nə var Lal Quləm Baduladzeyə, o hayxımış köpəyoğluna at taçqası ilə bir bidon su gətirməyib. Belə də görəcəkmi olar? Bu nə dərddi biz düşmüşük? Yenə yaxşı ki,Cəlil Əfəndi var imiş bu kənddə. O olmasa neynəyərdik biz? Gözünə döndüyüm nə təhər təpinibsə Baduladzeyə, atı buraxıb. Yoxsa aparacaxmış əlli-



ayaxlı. Əmbə taçqanı verməyib. Deyir, dustax saxlayıb taçqanı. Abıdan canımızı yenicə qurtarmışdıq. Indi də bu Baduladze vurğun vurmuş peyda oldu. İki kəlmədən bir də hədə-qorxu gəlir adama bandit köpəyoğlu.

**AŞIQ ƏHSƏN** - Ayə, a Molla Qasım, sənin ağlın nə kəsir bu Dul köpəyoğlunun sözünnən? Birdən bunun ağzı fal olar, Abı gəlib çıxar. Onda bizim güzaranımız nə təhər olacax? Yenə zülümmu çəkəcəyik?

**MOLLA QASIM** - Elə olsa onda qırılarıq ki... Bir yannan Baduladze, bir yannan Barbaryan, bir yannan da Abı. Görəcək olar. İllah da işin üstü açılsa...

**AŞIQ ƏHSƏN** - Kiri ayə, kiri ayə, iş nədi? Nə ağzına gələni danışırsan? Dilinə kilid vur. Elə şeyləri heç yadına da salma! Öyümüzü yıxarsan!..

**CƏLİL ƏFƏNDİ** - Sabahınız xeyir olsun. Şəhər avtobusu hələ gəlməyib ki? *(Aşıq Əhsən və Molla Qasım qabağa yeriyib Cəlil Əfəndiyə ehtiram göstərir, əlini sıxırlar.)*

**AŞIQ ƏHSƏN** - Hər vaxtınız xeyrə calansın, ay Cəlil Əfəndi.

**MOLLA QASIM** - Amin, ya rəbbil aləmin. Tanrı bizə çox görməsin səni. Allah bu cahamatın başının üstündən əskik eləməsin.

**AŞIQ ƏHSƏN** - Aşıq deyər Tanrıya, Qurban olum Tanrıya. Tanrı özü yetişsin, Kömək olsun hamıya. Ay Cəlil qağa, sabah-sabah Dul Alı bir bəd xəbər söylədi. Bilirsiniz dana, onun da ağzınnan çıxan fal olur. Qorxuram bu da yerini ala.

**CƏLİL ƏFƏNDİ** - Nə deyir yenə Dul Alı?

**AŞIQ ƏHSƏN** - Deyir ki, Aftaritet Abı qaladan çıxıb, gəlir. Nanı Kişi yuxusunda görüb deyir vurğun vurmuş. Görən bu düz ola bilərmi? Buraxarlarmı belə tezliklə o dələduzu?

**CƏLİL ƏFƏNDİ** - Hər şey ola bilər.

**MOLLA QASIM** - Elə olsa, bə onda bu xalxın işi nə təhər olar, a başına dönüm?

**CƏLİL ƏFƏNDİ** - Bir qorxusu olmaz. Onun xalxnan nə işi var? Onun mərəzi başqadı...

**AŞIQ ƏHSƏN** - Olmasın dana, olmasın. Vallah mən bu cahamatın dərdini çəkirəm. Yazıxdı bu xalx. Bir yannan bu Baduladze, bir yanan bu Barbaryan köpəyoğlu, bir yannan da Abı başlasa işimiz fırıxdı. Qanı qannan yumalı olacayıq.

**MOLLA QASIM** - Ay Cəlil Əfəndi, bə bu qəbırstanlığın işi nə təhər olacaq? Birdən Allah göstərməsin, deyirəm şər deməsən xeyir gəlməz, bir adam ölüb eləsə harya bastıracayıq? Dünən qəbristanlığı qarış-qarış gəzdim. İmir Heydar ağanın qəbrinə Quran oxutdurmağa aparmışdılar urusetdən gələnlər. Deyirlər, elə dar məqamda köməyə gəlib ki, cəddinə qurban olduğumun cəddi, heç dilnən deyiləsi döylü. Ölümün gözünnən qurtarıb onları. Quranı oxuyandan sonra gəzdim qəbristanlığı. Bircə adamlıq da olsun yer yoxdu.

**CƏLİL ƏFƏNDİ** - Yenə gedirəm, görək nə olacaq. Dünən torpaq şöbəsinin müdirinin yanında oldum. Deyir bu elə məsələdi ki, gərək qubernator özü icazə verə. Indi bu gün də gedirəm qubernatorun yanına, görüm içəri düşə biləcəmmi.

**AŞIQ ƏHSƏN** - Bə sən də düşə bilməyəndə, kim düşə bilər? Bizim sənnən başqa kimimiz var ki? Allah səni bu kəndə çox görməsin.

**MOLLA QASIM** - İllah ya amin, ya rəbbil aləmin.

**CƏLİL ƏFƏNDİ** - Görək da, Allah özü kömək olsun, Allah özü düzəltsin.

**MOLLA QASIM** və
**AŞIQ ƏHSƏH** - *(Bir ağızdan)* Amin, amin... Ya rəbbim, sən özün kömək ol bizə...

**CƏLİL ƏFƏNDİ** - Bilirsinizmi, çətindi, çox çətindi. Yer qalmayıb, hamısını paylayıblar, satıblar. Hara əl qoyursan, böyründən bir əl çıxır. Ümidim bircə Pir Məmməd dağının ətəyinədi. Deyirlər onu da o vaxt Abı alıb. Indi nə qədər ki, Abı qaladadı gərək məsələni həll edəm. Yoxsa bu iş cəncələ düşəcək.

**MOLLA QASIM** - Baxmırsanmı, sabah-sabah bu vurğun vurmuş da dedi ki, Abı gəlir.

**AŞIQ ƏHSƏN** - Görəsən gəlsə işimiz nə təhər olacaq?

**CƏLİL ƏFƏNDİ** - Əvvəla, gəlsə gərək birinci növbədə onu Yaradanquluynan birtəhər barışdıraq. Çünki bu bir qan məsələsidi. Yoxsa yenə də Abı dinc duran deyil. Indi də o biri uşaqları öldürəcək.

**AŞIQ ƏHSƏN** - Axı burda Yaradanqulu kişinin heç bir günahı yoxdu. Onun oğlu Abının qızını götürüb qaçanda düşmənçılık üçün qaçırtmamışdı. Düşmənçiliyı Abı elədi. Qız oğlanı istəyirdi, oğlan da qızı. Qaçırtdı, Abı da vurdu ikisini də öldürdü. Tutdular, hər şey qurtardı.

**CƏLIL ƏFƏNDİ** - Qurtarmadı. Məhkəmədə Abı dedi ki, mən bu işi elə-belə buraxmayacağam. Yaradanqulunun nəslini yer üzündən kəsəcəyəm. Özünüz bilirsiniz ki, Abı qandan qorxmazın biridi, həm də dediyini eləyəndi. Ona görə də, əgər Abı qaladan çıxsa, çalışıb birinci növbədə onları barışdırmaq lazımdı. Əgər Abı barışmaq istəsə.

**MOLLA QASIM** - Birdən barışmaq istəməsə?

**CƏLİL ƏFƏNDİ** - Onda işlər xeyli çətin olacaq. Bir yannan da bu qəbirstanlığın yer məsələsi. *(Dul Alı çubuq atını səyirdə-səyirdə səhnəyə daxil olur və Cəlil Əfəndini görcək çubuq atından düşüb ona yaxınlaşır. Bu dəmdə Aşıq Əhsənin sözlərini eşidib dayanır.)*

**AŞIQ ƏHSƏN** - Ayə, a qardaş, biz başımıza haranın daşını tökək? Məclisdə düz-əməlli çalıb-oxuya bilmirik. Nə oxuyuruq səhfimizi tutur. Nə çalırıq səhfimizi tutur.

**MOLLA QASIM** - Burnunu hər yerə soxur. Onun əlindən Quran oxuya bilmirik. Hardan oxuyuruq, ordan kəsir...

**DUL ALI** - Ona görə ki, o hər şeyi sizdən yaxşı bilir. *(Tələsik sözünü deyir və üzünü Cəlil Əfəndiyə tutur.)* Sabahın xeyir olsun, ay Cəlil Əfəndi. Abı qağam

yaman birə salıb bunnarın kürkünə. Deyirəm ey, Cəlil Əfəndi, Allah qorxaxları niyə yaradıb görəsən? Bax, mənim bunnan əvvəlki atım çaydan keçəndə qorxurdu. Zornan, döyə-döyə keçirirdim çaydan. Bir də görürdün suyun içində tarappıltınan suya yatırdı. Neçə dəfə az qalmışam suda boğulam. Beyjə yuxudan bircə qırıq gec ayılsaydım, boğulub ölmüşdüm. Hə, savax-savax Baduladzeyə şikayət elədim. O da sağ olsun, dedi kin, o at köhnəlib, budu bax, qat təzə, yağın içindəjə at bağışdadı mana. Allah atasına rəhmət eləsin. Çovan Qədirin qoyunları Baduladzenin taxılına girmişdi, qoyunnarı əlinnən alıb apardı, bunu da mana verdi. Dedi çap eey, bu Qədirin ajığına. Yoxsa bunlar, bunlar adama şəbədə qoşurlar, şanqıra bəziyirlər. Barmağın od tutub yanar, yanan barmağa bir içim suyu qıymazdar. Bax, Cəlil Əfəndi, həm atdı, həm də saz. Istiyəndə çapajam, istiyəndə çalajam. Belə at heç Koroğluda da yoxuydu.

AŞIQ ƏHSƏN - Bə o biri atı neynədin a çıxdaş?

DUL ALI - Vurdum öldürdüm. Çünki, qorxaq idi, ölməliydi. Elə siz də ölməlisiniz, çünki, qorxaqsınız. Qoy bir Abı qağam gəlsin, deyəjəm sizi də öldürsün. O öldürməsə, gejə atnan çaydan keçəndə atı düz sinənizin üstündən çapajam, dırnaxlarınnan didik-didik eyliyəjəm ikinizi də. Əgər yuxudan tez ayılmasam. Beyjə Allaha yalvarajam kin, yuxudan ayılmıyım, əgər ayılmasam, özünüzü ölmüş bilin...

AŞIQ ƏHSƏN - Sən Allaha yalvar, Allah səni elə yatırtsın ki, bir də heç vaxt ayılmayasan.

DUL ALI - Vallah elə olsa, bütün qorxaqların kökünü kəsərdim. Qoy Abı qağam gəlsin, qoşulajam ona, qırıb çatajam bütün qorxaxları. *(Çubuq atını minir, şahə qalxırmış kimi kişnəyir, səhnə boyu çaparaq qışqırır.)* Qorxaxlara ölüm! Qorxaxlara ölüm! Yaşasın Qırat! Yaşasın üç telli saz! Qorxaxlara ölüm! Yaşasın Abı qağam! Yaşasın Nanı Kişi! Yaşasın Cəlil Əfəndi!.. Həə, lap yadımnan çıxmışdı, xavarınız oldumu, beyjə Yetim Bayramın da inəyini mələtdilər?! Evlərinin qabağında məərəkədi. *(Kövrəlir, ağlamsınır.)* Beçərə Yetim Bayram özünü döyməkdən üzündə-gözündə tutar-islahat qoymadı...

MOLLA QASIM - Yetim Bayramın özünü döyməkdən başqa əlinnən nə gəlir ki?.. Bir çətən külfət o inəyin südünəcə baxırdı! Acından qırılacaqlar! Ay Cəlil Əfəndi, bu oğurluq nə vaxda kimi davam edəcək? Bə bunun bir sonu olmayacaqmı?..

AŞIQ ƏHSƏN - Sonu hardan olsun? Bə Barbaryan, Baduladze nə yesinlər? Onları kim yedirtsin? Vallah bu Baduladze ilə Barbaryan köpəyuşağı gələli oğurluq öskürəyə dönüb, elə bil allergiya kimi... Gecə işıqlar keçdi, qurtardı, kiminsə ocağı qaralır...

MOLLA QASIM - Bə bu Obolonu havaxt tutacaqlar eey?..

AŞIQ ƏHSƏN - Ayə, Obolonu kim tutasıdı? Tutasılar özdəri him verir.

CƏLİL ƏFƏNDİ - Bunun da bir sonu olar inşallah, darıxmayın.

DUL ALI - Görürsünüzmü, Abı qağam qalada olmuyanda kənddə oğurrux yoxudu... Elə kin Abı qağam getdi, kəndə mələməşüvən düşdü!.. Gedim, görüm bir Yetimin işi hancəri oldu. Yetimlərə mədət! Yetimlərə mədət!.. *(Çubuq atını çaparaq səhnədən çıxır. Muncuqlu Mahmud əlində əsa, arvadı Lyudmila əlində çantası onun qolundan tutaraq, səhnəyə daxil olurlar.)*

MUNCUQLU MAHMUD - Dobroe utro qospoda... Şəhər avtobusu hələ gəlməyib?

CƏLİL ƏFƏNDİ - Sabahınız xeyir. Yəqin ki, indilərdə gələr. Mən də onu gözləyirəm.

LYUDMİLA - Dobroe utro. Eşitdiniz, pro bednoqo Yetim Bayrama?

CƏLİL ƏFƏNDİ - Eşitdik... Qurd həmişə özünü içindən yeyir.

MUNCUQLU MAHMUD - Da, vse pravilno...

AŞIQ ƏHSƏN - Dobro, dobro, ağa Mahmud, Girdi yenə bağa Mahmud, Bir quş tutdum mən bu bağdan Quş çıxdı qurbağa Mahmud...

MUNCUQLU MAHMUD - Tfu... Lənət sənə kor şeytan... Lənət sənə kor şeytan. Səhər-səhər yenə bu it hardan çıxdı qarşıma? Bılo bı to vremya, mən səni kak salabon şaqat elətdirərdim qabağımda gecə-gündüz. Onda tutardın qurbağa, Çönüb olardın tısbağa... Minərdim səni, Çıxardım dağa... Mən də gülərdim, Sən tək sarsağa... Kozyol roqatıy... Ubit tebya malo. Povesit tebya nado za yazık. Takie kak tı yaşayırlar zrya...

LYUDMİLA - Sakit ol Maxmud, on şutit s toboy...

MUNCUQLU MAHMUD - On ne imeet pravo şutit so mnoy. Ya-general, a on eşyo soplyak.

LYUDMİLA - Ladno, uspokoysya, Maxmud, sakit ol, sakit ol...

MOLLA QASIM - Ayə, a Mahmud, xeyir ola şəhərə getməkdə? Olmaya sənə generalisimus verirlər, xəbərımız yoxdu?

MUNCUQLU MAHMUD - Tfu na tebya, nesçastnıy molla. Qabağımnan iki it çıxdı sabah-sabah, çətin mənim işim rast gətirə. Razve sən znaeş çto takoe generalissimus?.. Şikil çəkdirməyə gedirəm şəhərə...

AŞIQ ƏHSƏN - Baah... İşə bax eey... A şiklin şəhərdə qalsın, bu yaşında neynirsən şikli? Bu gün-sabahlıqsan, gorunamı aparacaqsan gedəndə?

MUNCUQLU MAHMUD - Eto tebe neobyazatelno znat... Tebe eto ne kasaetsya.

MOLLA QASIM - Olmaya burda bir sekret var, a Muncuq?..

MUNCUQLU MAHMUD - Kakoy eşyo sekret?!.. Vdruq zavtra mən yıxıldım öldüm... Taqda fotoqrafiya ne ponadobitsya? K tomu je, novoe pokolenie bilməli döylümü pro svoeqo generala?

MOLLA QASIM - Sən allah, əylən görək, hələm ölüb eləmə, qəbiristanlıqda yer də yoxdu, ölsən haraya astıracayıq?..

*(Davamı növbəti sayımızda)*